**ELMİ İŞ**
**(humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal) 2019, №1(2)**

L.V.Abduyeva
Bakı Mühəndislik Universiteti

# SOYUQ MÜHARİBƏDƏN SONRA ABŞ-ın QARA DƏNİZ STRATEGİYASI

***Açar Sözlər:*** *Qara Dəniz,ABŞ,Rusiya Federasiyası,Yeni Dünya Nizamı,NATO*
***Key Words:*** *Black Sea, USA, Russian Federation, New World Orde, NATO*
***Ключевые слова:*** *Черное море, США, Российская Федерация, Новый мировой порядок, НАТО*

Qaradəniz, müasir geosiyasi nəzəriyyələrə görə, əhəmiyyətli bir bölgə mövqesindədir. Çünki Mackinderin "quru hakimiyyət nəzəriyyəsi"nə görə, "mərkəzi" regiona ən asan nəqliyyatı təmin edəcək mövqedə olan Qaradəniz, Spykmanın nəzəriyyəsi görə də Avropanı Orta şərq və Asiyaya bağlamaqdadır.Huntingtonun "sivilizasiyalar qarşıdurması" tezisində,Müsəlman dünyası ilə Ortodoks dünyasını bir-birindən ayıran xəttin Qaradənizdən keçdiyini bildirmişdir.[1]

90-cı illərdə avropa-Atlantik dünyası, diqqətini Şərq və Orta Avropa ölkələrinin inteqrasiyasına çevirmişkən, Qaradəniz ikincil bir əhəmiyyətə sahib idi. Ancaq 2000-ci illərdə artıq dəyişən qlobal və regional dinamiklərin yeni siyasi və təhlükəsizlik məsələlərinə səbəb olması Qaradənizin əhəmiyyət qazanmasına gətirib çıxardı. 11 Sentyabr hücumlarının ardından transatlantik təhlükəsizlik mərkəzi Orta və Şərqi Avropadan "Böyük Orta Şərq" və "Geniş Qaradəniz" bölgələrinə keçdi

## 1.Qara Dəniz Regionunun ABŞ üçün önəmi

Qara Dəniz regionu həm Orta Şərq həm də Xəzərin enerji mənbələrinə çatan ən əsas tranzit regionu olması baxımından ABŞ-ın mənfəətləri və təhlükəsizliyinə görə böyük önəm daşıyır.ABŞ üçün Qara Dəniz regionu ilə əlaqədar 3 əsas stratejik maraqları vardır:1)ABŞ Qara Dəniz vasitəsi ilə XXI əsrdə Mərkəzi Asiyadaki Qərbin nəzarətini təmin edərək eyni zamanda Rusiyanın Çin ilə Qərb arasındaki stratejik alternativlərinin formalaşdırılmasında da əsas mövqeyə sahibdir.Digər tərəfdən ABŞ Rusiya-Çin yaxınlaşmasından ciddi narahatlıq keçirdir.Bunun ən bariz örnəyi ABŞ Çinin irəli sürdüyü “Müasir İpək Yolu”lahiyəsinə qarşı çıxaraq Çinin həm özünə qarşı ciddi rəqib olmasına həm də hətta dünyanın yeni super güc olmasına qarşı mübarizə aparır.2)ABŞ hər zaman Qara Dəniz regionunda öz nəzarətini gücləndirməklə Qara Dəniz,Orta Şərq və Qafqaz regionunun gündəmini öz mənfəətlərinə uyğun olaraq formalaşdırmaq fürsətini əlində saxlamağa çalışır.3)ABŞ münaqişələrin artdığı Yaxın Şərqə alternativ ola biləcək enerji qaynaqlarına sahib olan Xəzər Hövzəsini nəzarət etmək, dünya bazarlarındakı enerji qiymətlərinin nəzarət altında tuta bilmək, Neft İxrac edən Ölkələr Təşkilatından(OPEC) asılılığı azaltmaq kimi səbəblərlə Qaradənizdəki enerji nəqli ilə çox yaxından maraqlanır.

## 2.ABŞ-ın Müasir Qara Dəniz Strategiyası

Soyuq müharibədən sonra Qara Dəniz regionuna olan marağı daha da artan ABŞ regionla əlaqədar “ Böyük Şahmat taxtası” və “Genişləndirilmiş Qara Dəniz” Strategiyalarını izləmişdir.Bu strategiyaların əsas məqsədi ABŞ hegemoniyasına qarşı çıxan rəqiblərin ciddi rəqiblərə çevrilməsini və regional ittifaqların yaranmasına mane olmaq idi.Qaradəniz Regionu, 11 Sentyabr terror hücumundan sonra Əfqanıstana qarşı hərəkatın dəstəklənilməsi baxımından ABŞ üçün əhəmiyyəti artmışdır. Çünki region, alternativ hava koridoru və Mərkəzi Asiyadakı köhnə SSR ölkələrində təsis edilən Amerikan hərbi qüvvələrinə keçidin asanlığını təmin etməkdədir.1990-cı illərdə Qaradəniz istiqamətli ‘Avropa-Atlantik' strategiyası şəklində mənimsənən yanaşma, 11 Sentyabr hücumlarından sonra daha əhatə edici və Qərbin sahib olduğu dəyərlərə nail olmağı hədəfləyən “Genişləndirilmiş Qaradənizə”çevrilmişdir.ABŞ öz Qara Dəniz strategiyasınıNATO,Demokratiya,ABŞ-ın Region ölklərinə maddi yardımı kimi vasitələrlə həyata keçirməyə çalışır.

### 2.1.NATO

ABŞ və Avropanın ortaq vasitəsi olan NATO-nun genişlənməsi Qara Dəniz regionunda Amerikanın üstünlüyünün qurulmasında vacib idi.Bjezinskinin qeyd etdiyi kimi,əgər NATO-nun genişlənmə strategiyası müvəffəqiyyətsizliklə nəticələnsə idi Avrasiya üçün əhatəli Amerikan strategiyası həyata keçirmək mümkün olmazdı [2].Bunun müxtəlif səbəbləri vardır. Bunlardan ilki,Bjezinskinin qeyd etdiyi kimi Avrasiyaya hökm edən bir güc, dünyanın ən irəli və iqtisadi olaraq ən məhsuldar üç bölgəsindən ikisini nəzarət edəcək.Ikincisi,Aİ hərbi baxımdan NATO qədər inkişaf etmiş bir hərbi potensiala və müdafiə etmə tutumuna sahib olmadığı üçün bu ölkələrin qarşı-qarşıya olduğu təhlükəsizlik təhdidləri ilə mübarizə edə bilməz. Digər səbəb isə Orta Şərq regionundan qaynaqlandığı irəli sürülən asimmetrik terorizmə qarşı, Qaradəniz regionu əhəmiyyətli rol oynamaqdadır.

Yanvar 1994-cü ildə NATO-nun Sülh Naminə Tərəfdaşlıq lahiyəsi başladılmışdır. SNT proqramı çərçivəsində təklif edilən fəaliyyətlər,müdafiə etmə siyasəti və planlanması, vətəndaş-hərbi əlaqələr, təhsil,elmi və ekoloji xüsusiyyətlərə bağlı əməkdaşlıq kimi NATO-nun bütün fəaliyyət sahələrinə konkret olaraq toxunmaqdadır.Hələ də SNT proqramı içərisində əksəriyyəti Balkanlar, Orta Avropa, Qafqazlar və Orta Asiyada iştirak edən 22 ölkə var [3].Bütün bunlara baxmayaraq,Rusiyanın 13 Avqust 2008-ci ildə Gürcüstana hərbi müdaxiləsindən sonra, o dövrdə Gürcüstan və Ukraynada NATO üzvlüyü mövzusunda həddindən artıq bir istək və gözləntiləri də NATO-ya üzvlük məsələsi böyük ölçüdə aşağı düşmüşdür.

### 2.2.Demokratiya

ABŞ-ın Qara Dəniz regionunda yerləşən ölkələr demokratik dəyərləri təbliğ və təşviq etməklə region ölkələrinin Rusiyanın təsirindən çıxarmaq və daha çox qərbə meyilli dövlətlər formalaşdırmaqdır."Genişlədilmiş Qaradəniz

Bölgəsi" olaraq bilinən lahiyənin məqsədləri üçün "sülh, sabitlik, enerji təhlükəsizliyi və əxlaqi öhdəlilik" adına "yeni bir strategiyanın gündəmə gətirilməsinin lazımlılığı önə çıxarılmışdır.Gürcüstan və Ukraynada baş verən"Məxməri" və "Narıncı İnqilanlarını"ABŞ dəstəkləmişdir.Qərb mediası tərəfindən demokratik tələblərlə hərəkətə keçmiş xalq hərəkətləri olaraq ifadə edilən bu inqilablar əsnasında Qərbli dövlətlərin və xüsusilə ABŞ-ın mənafeləri dəstəklənmişdir[4].ABŞ Prezidenti Corc Buşun 2005-ci ildəki çıxışında hər xalq və mədəniyyətdə reallaşacaq bu tərz demokratik hərəkətləri dəstəklədiklərini açıq bir dillə ifadə etmişdir [5].Bir güc boşluğu olan bu coğrafiyada STK-lar 2000-ci illərdə fəaliyyəti ictimai hərəkatın müvəffəqiyyət ilə nəticələnib inqilaba çevrilməsində son dərəcə əhəmiyyətli olmuşdur.Bütün bunlardan əlavə 2014-cü ildə keçirilən Bükreş Formunda da ABŞ Milli Təhlükəsizlik Məsləhətçisinin Köməkçisi Krouç yeni bir Qara Dəniz Razılaşması Lahiyəsi təklifini irəli sürmüşdür.Bu lahiyə Qara Dəniz ərazisində yerləşən ölkələrin demokratiya ,sərhədlər arası işbirliyi və beynəlxalq hüquq normalarının üstünlüyü proqramlarına maddi dəstək vermişdir

**2.3.Region Dövlətlərinə ABŞ-ın Yardımı**

1.ABŞ Region dövlətlərinə müxtəlif yardım proqramları tətbiq edərək bu dövlətləri Rusiyanın təsirindən çıxarmaq və burada bir qərb modeli formalaşdırmağa çalışır.Bu yardım proqramlarından biri keçmiş SSR dövlətlərinin demokratikləşməsini və sərbəst bazara keçidini təmin edən "Müstəqilliyi Dəstəkləmə Aktıdır".2.Bu çərçivədə bir başqa addım da "Regional İşbirliyi üçün Qara Dəniz Fondu"olmuşdur."Demokratiya və sərbəst bazar iqtisadiyyatı" adına Qara Dəniz Fonduna 10 milyon dollar ayıran ABŞ həmçinin RF,Ukrayniya,Bolqarıstan və Türkiyədə "hüququn üstünlüyü" anlayışının gücləndirilməsi məqsədi ilə müxtəlif yardım proqramlarını da dəstəkləyir3.ABŞ, qlobal ölçüdə fəaliyyət göstərən müxtəlif vətəndaş cəmiyyət quruluşları vasitəsiylə 2000-ci illərdən etibarən Ukrayna iç siyasətini şəkilləndirməyə çalışmışdır. Bu məzmunda Ukraynadakı gənclik təşkilatı PORA diqqətə dəyərdir.PORA-nın ABŞ-ın rəsmi qurumu olan U.S. Agency for International Development (USIAD) ilə ABŞ STK-lərindən National Endowment for Democracy (NED), National Democratic Institute və International Republican Institute (IRF) tərəfindən dəstəklənildiyi iddia edilməkdədir.ABŞ yumşaq güc ünsürlərini istifadə edərək regionda qərb modeli bir dövlət və xalq qurmağa çalışır.

**Nəticə**

ABŞ-ın istər "Böyük Şahmat Taxtası"nəzəriyyəsi istərsə də "Genişləndirilmiş Qara Dəniz Lahiyəsi"Qara Dəniz Regionunda Qərb Dəyərlərinin formalaşmasına və bu regionda ABŞ-ın təsirinin daha da güclənməsinə xidmət edir.ABŞ bu strategiyaları müxtəlif vasitələr ilə həyata keçirməyə çalışmışdır.Bu vasitələrdən biri 1994-cü ildə irəli sürülən "NATO-nun Genişlənmə Siyasəti"dir.Bu siyasət çərçivəsində müstəqilliyini təzəcə qazanmış keçmiş SSR dövlətlərinə hərbi dəstək təmin edərək qərbyönümlü yeni bir dövlət formalaşdırmaq idi.Digər vasitə isə ABŞ-ın regionda demokratik dəyərləri təbliğ etməsi olmuşdur.Bu özünü ən çox istər Gürcüstanda 2003-cü ildə baş verən "Məxməri İnqilabını" və istərsə də 2005-ci ildə Ukrayniyada baş verən "Narıncı" inqilabını ABŞ-ın dəstəkləməsində göstərmişdir.Sonuncu bir vasitə isə ABŞ-ın bu regiona tətbiq etdiyi yardım proqramları olmuşdur.Bu çərçivədə istər "Müstəqilliyi Dəstəkləmə Aktı", istərsə də "Regional İşbirliyi üçün Qara Dəniz Fondu"və digər proqramları ilə ABŞ Qara Dəniz Regionunda həm də maddi cəhətdən öz mövqeyini möhkəmləndirməyə və iqtisadi baxımdan region ölkələrini özündən asılı vəziyyətə salmağa çalışmışdır. Bu hadisələr ABŞ-ın Qara Dəniz regionunda nüfuzunun daha da artmasına səbəb olmuşdur.

**Ədəbiyyat:**

1. Hamilton,Daniel The Wider Black Sea Region in the 21st Century:Strategic,Economic and Energy Perspectives (Washington:Center for Transatlantic Relations):319-336

2. Bjezinski.Z (1998),Büyük Satranç Tahtası (Çeviri:Ertuğrul Dikbaş və Ergun Kocabıyık)

3. The Partnership for Peace programme, http://www.nato.int/cps/en/natolive/topics_50349.com

4.Sussman, G. ve Krader, S. (2008). Template Revolutions: Marketing U.S. Regime Change in Eastern Europe. Westminster Papers in Communication and Culture.5 (3), 91-112.

5.Garber ,Judy (2008), "U.S Perspectives on the Black Sea Region" www.state.gov./p/eur/rls/rm/105827.htm>(01.08.2009)

**After The Cold War USA's Black Sea Strategy**

**Summary**

After the Cold War Era the interest of the United States for the Black Sea region has been apparently increased. After the collapse of USSR, USA, aiming to maintain its hegemony by announcing "new world order", considers the Black Sea as its "sphere of vital interest".The main idea of "the Grand Chessboard" and "the Wider Black Sea", which are in parallel with the American strategy documents, is to prevent potential rivals to become real ones and anti-US regional coalitions. NATO, through membership or cooperation, plays an important role in building "whole and free Europe", in other words, integrating the region with the Western system. From the US point of view, NATO is the main provider of security for the Euroatlantic region, which includes the Black Sea. Besides NATO, through assistance programs, "the rose and orange revolutions", USA tries to prevent Russian effect in region.

**Черноморская Стратегия США после холодной иойны**

**Аннотация**

После эпохи холодной войны интерес Соединенных Штатов к Черноморскому региону, очевидно, возрос. Соединенные Штаты внимательно следят за процессом модернизации и демократизации региональных государств после того, как они обрели независимость в постсоветский период, и Соединенные Штаты в первую очередь предпочитают работать с НАТО, чтобы быть эффективными в регионе. «Расширенное Черное море» используется под влиянием новой «Великой игры». После распада СССР США, стремясь сохранить гегемонию, объявив «новый мировой порядок», считают Черное море своей «сферой жизненных интересов». Основная идея «Большой шахматной доски» и «Большого Черного моря» Параллельно с американскими стратегическими документами заключается в том, чтобы не дать потенциальным соперникам стать реальными и антиамериканскими региональными коалициями. Через членство или сотрудничество НАТО играет важную роль в построении «единой и свободной Европы», иными словами, интеграции региона в западную систему. С точки зрения США, НАТО является основным поставщиком безопасности для евроатлантического региона, который включает в себя Черное море. Помимо НАТО, посредством программ помощи, «розовых и оранжевых революций», США пытаются предотвратить влияние России в регионе.

**Rəyçi: prof. S.Quliyev**